# Xəzər Dəniz gəmiçilərinin peşə bayramı





**İyunun 25-də Azərbaycan Xəzər Dəniz gəmiçiləri ənənəvi olaraq peşə bayramlarını qeyd etdilər. Tədbir iştirakçıları əvvəlcə Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin abidəsi önünə, sonra görkəmli oftalmoloq Zərifə xanım Əliyevanın abidəsi önünə tər güllər düzdülər. Sonra isə Şəhidlər xiyabanında xalqımızın azadlığı uğrunda canlarından keçənlərin məzarlarına öz ehtiramlarını bildirdilər.**

**Tədbir iştirakçıları yığıncağı gəmiçilərin əsas binasının akt zalında təntənə ilə davam etdirdilər. Təmirdən yeni çıxmış akt zalının giriş hissəsində gəmiçiliyin tarixini əks etdirən eksponatları veteranlar və iştirakçılar maraqla seyr etdilər.**

**Azərbaycanın Dövlət himni səsləndirildikdən sonra söz Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanova verildi.**

Dəniz Administrasiyasının rəisi çıxışında qeyd etdi ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci ilin mayında Azərbaycan Respublikası Beynəlxalq Dəniz Təşkilatına üzv qəbul edilib. Ötən dövr ərzində təşkilat Xəzər Dəniz Gəmiçiliyinin rəhbərliyi ilə birgə fəaliyyəti əsasında mühüm işlər görmüşdür. Gəmiçiliyin fəaliyyətindən, qarşıya çıxan çətinliklərin səylə aradan qaldırılmasından, yeni gəmiqayırma zavodunun, yeni dəniz limanının və yeni gəmilərin alınması barədə Q.Qurbanov tədbir iştirakçılarına qısa və konkret məlumat verdi.

Sonra söz **"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyevə** verildi. Rauf Vəliyev mərasim iştirakçılarının diqqətinə çatdırdı ki, 2013-cü ilin oktyabrında möhtərəm Prezidentimiz İlham Əliyevin sərəncamına əsasən yaradılmış "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün Xəzərdə və Xəzərdənkənar hövzələrdə rəqabətədavamlı və beynəlxalq standartlara uyğun dəniz xidmətləri göstərən nüfuzlu və çevik gəmiçilik şirkəti qurmaq, kommersiya baxımından səmərəli fəaliyyəti təmin etmək, Azərbaycanın beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilməsinə əhəmiyyətli töhfə vermək, gəmiçilik sahəsində yüksəkixtisaslı yerli kadrların formalaşmasına nail olmaq əzmindədir. Bu istiqamətdə artıq xeyli iş görülüb.

Bu gün Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi regionda gəmilərin istismar edilməsində 158 illik zəngin təcrübəyə, 288 gəmidən ibarət ən böyük daimi donanmaya, 9 minə yaxın işçiyə, 2 gəmi təmiri zavoduna, ali təhsilli dənizçi kadrlar hazırlayan Dəniz Akademiyasına, eləcə də Təlim-Tədris və Sertifikatlaşdırma Mərkəzinə malik olan ən iri gəmiçilik şirkətidir.

AXDG-nin nəqliyyat donanmasına 92 gəmi, o cümlədən 34 tanker, 13 bərə, 20 universal quru yük gəmisi, 2 Ro-Ro tipli gəmi, 23 xidməti-köməkçi gəmi daxildir.

Dənizdə həyata keçirilən beynəlxalq neft-qaz layihələrini təmin edən ixtisaslaşdırılmış Xəzər Dəniz Neft Donanmasının tərkibində isə 196 gəmi, o cümlədən 21 kran gəmisi, 27 təchizat və yedək gəmisi, 29 sərnişin gəmisi, 2 borudüzən gəmi, 7 yanğınsöndürən gəmi, 5 mühəndis-geoloji gəmi, 11 dalğıc gəmisi, 5 dibdərinləşdirən gəmi və 89 müxtəlif təyinatlı xidməti-köməkçi gəmi vardır.

Bu gəmilər AXDG-yi Xəzər hövzəsində aparıcı mövqeyini təmin edir. Belə ki, dövlət başçısı İlham Əliyevin bütövlükdə nəqliyyat sahəsi qarşısında qoyduğu ən mühüm vəzifələrdən biri Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun imkanlarının genişləndirilməsi, tranzit yükdaşımalarda əlverişli şəraitin yaradılması ilə Azərbaycanın tranzit potensialının gücləndirilməsi və regionda böyük nəqliyyat qovşağına çevrilməsidir.

Hazırda dəniz nəqliyyatı respublika iqtisadiyyatının qeyri-neft sektorunda strateji əhəmiyyət daşıyan istiqamətdir. Gəmiçilik 2014-cü ilin fevralında yaradılmış Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı üzrə Koordinasiya Komitəsinin üzvü kimi dəmir yolu və liman qurumları ilə daimi əməkdaşlıq edir, Çin, Qazaxıstan, Gürcüstan və digər ölkələrdən olan tərəfdaşlarla birlikdə işləyir. Bu il Ukrayna və Rumıniya TBNM-na qoşulduqdan sonra artıq Türkiyə ilə müvafiq danışıqlar aparılır.

Müstəqillik dövründə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış yeni neft strategiyasının təməlini təşkil edən "Əsrin müqaviləsi" Xəzər Dəniz Neft Donanmasının qarşısında yeni üfüqlər açdı. Belə ki, neft sazişi imzalandıqdan sonra XDND 1995-ci ildən etibarən ilk yerli təşkilat kimi Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə əməkdaşlığa başladı. Sonralar digər əməliyyat şirkətləri ilə də əməkdaşlıq əlaqələri yaradıldı və onlara Neft Donanmasının gəmiləri vasitəsilə xidmət göstərildi.

Azərbaycanın iri beynəlxalq layihələrdə iştirakı, tarixi İpək Yolunun bərpası, TRASEKA nəqliyyat dəhlizinin reallaşması da Ümummilli Liderimizin bəşəri xidmətlərindəndir.

Xəzər hövzəsində ən müasir sənaye müəssisələrindən olan Bakı Gəmiqayırma Zavodunda Gəmiçiliyin sifarişi ilə 80 nəfərlik 3 sərnişin gəmisi inşa edilib və 2016-cı ilin aprelində möhtərəm Prezidentimiz İlham Əliyevin iştirakı ilə istismara buraxılıb.

Gəmilərin təmiri, bu sahədə infrastrukturun genişləndirilməsi sahəsində xeyli iş görülüb. 2015-ci ildə əsaslı təmir olunan gəmilərin sayı əvvəlki illə müqayisədə 122% artıb.

Gəmiçilik işçilərinin rifahı və sosial problemləri daim diqqət mərkəzində saxlanılır. 2015-ci ildə AXDG üzrə orta aylıq əmək haqqı 2014-cü ilə nisbətən 15% artaraq 749 manat, üzücü heyət üzrə isə 835 manat təşkil edib.

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilk növbədə dəniz nəqliyyatına dövlətimizin dəstəyinə, xüsusilə də möhtərəm Prezidentimiz İlham Əliyevin daimi diqqətinə güvənir. Son dövrdə imzalanmış fərman və sərəncamlar strateji əhəmiyyət daşıyır. Belə ki, Xəzər Dəniz Gəmiçiliyinin inkişaf istiqamətlərinin müəyyən edilməsi, 2016-2020-ci illərdə Azərbaycan Respublikasında gəmiçiliyin inkişafına dair Dövlət Proqramının hazırlanması ölkə rəhbərliyinin diqqət mərkəzində olmaqla yanaşı, Gəmiçilik qarşısında qlobal vəzifələr qoyur.

Çıxışının sonunda Rauf Vəliyev mərasim iştirakçılarının diqqətinə çatdırdı ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi qarşıda duran bütün məqsədlərə nail olmaq və yeni uğurlara imza atmaq üçün tam gücü ilə çalışır.

**Kamal İBADOV,**
**"Respublika".**